# Şuşa xalqımızın mənəviyyat beşiyidir



***Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük sərkərdəlik və diplomatik məharəti, Silahlı Qüvvələrimizin rəşadəti və xalqımızın birliyi sayəsində Qarabağ və Şərqi Zəngəzurun əraziləri 44 günlük zəfər yürüşü ilə işğaldan azad edildi. Artıq ilyarımdır ki, Füzuli, Cəbrayıl, Hadrut, Zəngilan, Qubadlı, Şuşa, Laçın, Ağdam və Kəlbəcərdə geniş bərpa-quruculuq işləri həyata keçirilir, yeni infrastruktur yaradılır, "Ağıllı kənd" və "ağıllı şəhər" konsepsiyaları tətbiq olunur.***

Füzuli Beynəlxalq Aeroportu qısa müddətə tikilərək istismara buraxılıb. Hazırda Zəngilan və Laçın hava limanları tikilir ki, onlar da müvafiq olaraq bu il və 2024-cü ildə istifadəyə veriləcək.

Mədəniyyət paytaxtımız Şuşada görülən işləri xüsusi qeyd etmək lazımdır. Prezident İlham Əliyevin sərəncamı ilə bu il Qarabağın tacı olan şəhərin 270 illiyi şərəfinə Azərbaycanda "Şuşa ili" elan olunub. Orada bir çox mədəni və dini irs nümunələri bərpa olunaraq ikinci həyatını yaşamağa başlayıb. Beşulduzlu otellər tikilir. Artıq Şuşada çeşidli mötəbər beynəlxalq tədbirlər keçirilir. Ötən il təşkil olunan "Xarıbülbül" Musiqi Festivalı, Vaqif Poeziya Günləri, bu yaz keçirilən Dünya Azərbaycanlılarının Zəfər Qurultayı yaddaşlarda dərin izlər salıb.

Mayın 10-da Qarabağa növbəti dəfə səfər edən Prezident İlham Əliyev Şuşadan etdiyi müraciətdə 99 yaşı qeyd olunan ulu öndərin arzularının həyata keçdiyini vurğulayaraq bildirdi ki, onun ən böyük arzusu Qarabağı yenidən azad görmək, ərazi bütövlüyümüzü bərpa etmək idi. "Bu gün atamın, bu günü görmədən həyatdan getmiş yüz minlərlə insanın, şəhidlərimizin ruhu şaddır. Biz onların ruhunu şad eləmişik". Ümummillil liderin növbəti doğum günündə onun xatirəsinə özünün və xalqımızın dərin ehtiramını ifadə etmək üçün dövlət başçısının məhz Şuşaya səfər etməsi bu şəhərə verilən yüksək dəyərin daha bir təzahürü kimi önəmlidir.

İndi Şuşanı inamla əlvan festivallar şəhəri də adlandırmaq olar. Bir neçə gün əvvəl orada Birinci Beynəlxalq Kulinariya Festivalı öz işini uğurla başa çatdırıb. Heydər Əliyev Fondu və Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə müxtəlif ölkələrin kulinarları bir araya gəlmişdilər. Festivalda Azərbaycan xalqının qonaqpərvərliyi, bu şəhərin qədimliyi və gözəlliyi bir daha nümayiş etdirilib. Almaniya, Avstriya, Çin, Fransa, Gürcüstan, İran, İsrail, İtaliya, Malayziya, Türkiyə və Yaponiyadan olan kulinarlar qonaqları ölkələrinin təamları ilə tanış ediblər. Tədbirdə Belçika, Çexiya, Fransa, İtaliya, İsrail, Kanada, Koreya Respublikası, Qazaxıstan, Özbəkistan, Rusiya, Türkiyə və digər ölkələr qida sahəsi üzrə beynəlxalq ekspertlər və blogerlər ilə təmsil olunublar. Festival zamanı Şuşada təkcə dünya xalqlarının təamları deyil, həmçinin müxtəlif ölkələrin maddi-mənəvi dəyərləri təqdim edilib. Bu konsepsiyaya əsasən, fərqli formatda quraşdırılmış pavilyonlar qonaqları hər bir iştirakçı ölkəyə xas memarlıq üslubu, milli musiqi ilə salamlayıb, tanınmış əsərlərdən parçalar səhnələşdirilib. Azərbaycanın milli musiqiləri səsləndirilib, qonaqlara yerli tamaşa və filmlərdən səhnəciklər təqdim edilib. Festival tədbir iştirakçılarının Azərbaycanın milli rəqsi olan "Yallı" sədaları altında rəqsi ilə yekunlaşıb.

Bu günlər isə Şuşa yenidən mədəniyyət və incəsənət xadimlərini, xalq bədii kollektivlərini öz qoynuna alır. Orada V "Xarıbülbül" Festivalı başlanır. Festivalın əsas təşkilatçıları Mədəniyyət Nazirliyi, Heydər Əliyev Fondu və Şuşa Şəhəri Dövlət Qoruğudur. Dünyanın müxtəlif ölkələrindən folklor kollektivləri milli-mədəni örnəklərini sərgiləyəcəklər. Dağlar qoynunda, Cıdır düzündə mədəni ənənələrin bərpası hər kəsdə xoş duyğular yaradır.

Bildiyiniz kimi, TÜRKSOY Şuşanı 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı" elan etmişdir. Təbii ki, gələn il də orada davamlı şəkildə mötəbər beynəlxalq mədəni-kütləvi tədbirlər təşkil olunacaq. Qürur duyur, iftixar hissi keçiririk ki, Şuşaya qayıtmışıq, onun üzü gülür və bundan sonra da hər zaman belə olacaq.

***Elçin HÜSEYNOV,***
***Cəlilabad Rayon Gənclər və İdman İdarəsinin rəisi***

Xalq qəzeti .- 2022.- 12 may.- S.8.